# Gücləndirilmiş elektron imza olan ASAN İmza sertifikatı vasitəsilə İnternet Vergi İdarəsinə giriş

Asan İmza" gücləndirilmiş mobil elektron imza vasitəsi ilə Dövlət Vergi Xidmətinin informasiya sistemində yaradılan elektron kabinetə daxil olmaq üçün Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib "Asan İmza" bölməsi seçilir.







"Mobil nömrə" və "İstifadəçi ID" daxil edilərək "Daxil ol" düyməsinə sıxılır.




“Daxil ol” düyməsi sıxıldıqdan sonra istifadəçinin mobil telefonuna 4 rəqəmli yoxlama kodu göndərilir və eyni zamanda müvafiq yoxlama kodu ekranda əks olunur.




İstifadəçi tərəfindən onun telefona göndərilən yoxlama kodu ilə ekranda əks olunan kod üzləşdirilir və eyni olduğu halda “Qəbul et” düyməsi vasitəsilə təsdiqlənir. Fərqli olduğu halda “İmtina et” düyməsi sıxılır.




“Qəbul et” düyməsi sıxıldıqda istifadəçi telefonunda autentufikasiya üçün (yəni, kabinetə daxil olmaq üçün) 4 rəqəmli **ASAN İmza PİN1** kodunu daxil edərək **“Göndər”** düyməsini sıxır.




Növbəti addımda açılan pəncərədə istifadəçi təmsil etdiyi subyektlərdən müvafiq olanı üzrə seçim edərək elektron kabinetinə keçid edir. Eyni zamanda istifadəçi kabinetin sağ yuxarı

küncündə yerləşən "ox" işarəsinə sıxmaqla digər təmsil etdiyi subyekt üzrə seçim etməklə onun kabinetinə keçid edə bilər.




